

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 214 (24.351)

*18 noyabr 2023-cü il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## M.M.Seyidovun Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Mirsənani Mirsaleh oğlu Seyidov Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 17 noyabr 2023-cü il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2020-ci il 3 aprel tarixli 5-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası"nda dəyişiklik edilməsi barədə

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2020-ci il 3 aprel tarixli 5-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.4-cü bəndə "vəzifəli şəxsləri," sözlərindən sonra "yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları," sözləri əlavə olunsun və həmin bənddə "yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarına (bundan sonra – qəyyumluq və himayə orqanları)" sözləri "Nazirliyə" sözü ilə əvəz edilsin.

2. 2.5-ci bənddə "qəyyumluq və himayə orqanları" sözləri "Nazirlik" sözü ilə əvəz olunsun və həmin bəndə "uşaqlar" sözündən sonra ", himayədar ailə" sözləri əlavə edilsin.

3. 4.2-ci bəndin birinci cümləsində və 4.3-cü bənddə "12" rəqəmləri "12 (on iki)" sözləri ilə əvəz edilsin.

4. 5.2-ci bəndə "tərkibi" sözündən sonra "(ailə üzvlərinin sayı, o cümlədən ailədə olan uşaqların yaşı və cinsi)" sözləri əlavə edilsin.

5. Aşağıdakı məzmunda 15.2-1-ci bənd əlavə edilsin:

"15.2-1. Uşaq onu 3 (üç) aydan az olmayan müddətdə tərbiyə edən qəyyumları (himayəçiləri), habelə himayədar valideynləri tərəfindən övladlığa götürüldükdə Azərbaycan Respublikası Ailə Məcəlləsinin 118.3.3 – 118.3.5-ci maddələrinin tələbləri həmin şəxslərə şamil olunmur.".

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 17 noyabr 2023-cü il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2012-ci il 24 may tarixli 57-IV FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nda dəyişiklik edilməsi barədə

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2012-ci il 24 may tarixli 57-IV FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.5.11-ci yarımbəndə "vahid" sözündən əvvəl ", habelə himayədar ailə (himayədar valideyn) olmaq istəyən ailələrin (şəxslərin) və himayədar ailəyə verilmiş uşaqların" sözləri əlavə edilsin.

2. 2.5.16-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.5.17–2.5.21-ci yarımbəndlər əlavə edilsin:

"2.5.17. himayədar ailə sahəsində tənzimləmənin və dövlət nəzarətinin həyata keçirilməsini təmin edir;

2.5.18. himayədar ailəyə verilmiş uşaqlar üzərində qəyyumluq (himayəçilik) orqanının funksiyalarını həyata keçirir;

2.5.19. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdə yerləşdirilməsi və həmin müəssisələri tərk etməsi ilə bağlı qərar qəbul edir;

2.5.20. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdən öz ailələrinə qaytarılması və ya himayədar ailəyə verilməsi ilə bağlı tədbirlər görür;

2.5.21. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrə düşməsinin qarşısının alınması istiqamətində tədbirlər görülməsini, habelə həmin müəssisələrdə olan uşaqlarla bağlı fərdi inkişaf planlarının hazırlanmasını təmin edir.".

3. 2.8.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.8.3. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq, vahid uçota alınmış valideyn himayəsindən məhrum olan uşaqların yerləşdirilməsinə yardım edir;".

4. 2.8.7-ci yarımbənd ləğv edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 17 noyabr 2023-cü il*

## "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin yaradılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin əsasında publik hüquqi şəxs statuslu Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi yaradılsın.

2. "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin strukturu" təsdiq edilsin (əlavə olunur).

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

4.1. Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin balansında olan əmlakın "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxs (bundan sonra – Agentlik) dövlət qeydiyyatına alındığı gündən Agentliyin balansına verilməsini bir ay müddətində həll etsin;

4.2. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

4.3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını iki ay müddətində təmin edib Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin;

4.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Agentlik:

5.1. dövlət qeydiyyatına alınması üçün bu Fərmanın qüvvəyə mindiyi tarixdən etibarən üç gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun tədbirlər görsün;

5.2. Agentliyin işçilərinin say həddini və əməkhaqlarını bir ay müddətində təsdiq etsin;

5.3. Bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 17 noyabr 2023-cü il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 17 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin NİZAMNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi (bundan sonra – Agentlik) Naxçıvan Muxtar Respublikasının avtomobil yolu təsərrüfatı sahəsində xidmət göstərilməsi, balansında olan avtomobil yollarının (bundan sonra – avtomobil yolları), habelə körpülərin, tunellərin və digər yol qurğularının layihələndirilməsi, tikilməsi, istismarı, bərpası, təmiri, yenidən qurulması, avtomobil yollarının və yol qurğularının qorunub saxlanılması və onların vəziyyətinə nəzarət edilməsi, habelə yol infrastrukturunun inkişafı ilə bağlı digər işlərin kompleks şəkildə aparılmasının təmin edilməsi sahəsində (bundan sonra – müvafiq sahədə) fəaliyyətlə məşğul olan publik hüquqi şəxsdir.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ-hüquqi aktları rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentlik ümumdövlət əhəmiyyəti daşıyan fəaliyyətlə məşğul olur. Agentlik bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.5. Agentliyin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları, loqotipi (emblemi) vardır.

1.6. Qanuna uyğun olaraq, Agentliyin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır, o, məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edir.

1.7. Agentlik Naxçıvan şəhərində yerləşir.

### 2. Agentliyin fəaliyyətinin məqsədi və istiqamətləri

2.1. Agentliyin fəaliyyətinin məqsədi Naxçıvan Muxtar Respublikasının avtomobil yolu təsərrüfatı sahəsində xidmət

*Ardı 2-ci səhifədə*

göstərilməsindən, avtomobil yollarının, habelə körpülərin, tunellərin və digər yol qurğularının (keçidlər, qurğular, tikililər və avadanlıqlar) layihələndirilməsindən, tikilməsindən, istismarından, bərpasından, təmirindən, yenidən qurulmasından, avtomobil yollarının və yol qurğularının qorunub saxlanılmasından və onların vəziyyətinə nəzarət edilməsindən, habelə yol infrastrukturunun inkişafı ilə bağlı digər işlərin kompleks şəkildə yerinə yetirilməsindən ibarətdir.

2.2. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.2.1. müvafiq sahənin inkişafını təmin etmək;

2.2.2. müvafiq sahədə dövlət siyasətinin formalaşmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini təmin etmək;

2.2.3. müvafiq sahəyə aid proqnozlaşdırma və planlaşdırma işlərini təşkil etmək.

**3. Agentliyin hüquq və vəzifələri**

3.1. Agentlik bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. müvafiq sahə üzrə Dövlət proqramlarının, strategiyaların və inkişaf konsepsiyalarının hazırlanmasında və həyata keçirilməsində iştirak edir;

3.1.2. təsərrüfat fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar malların (işlərin və xidmətlərin) satın alınması üçün satınalmalar haqqında qanunvericilikdə nəzərdə tutulmuş qaydada tenderlərin (müsabiqələrin) keçirilməsini təşkil və təmin edir;

3.1.3. müvafiq sahənin inkişaf etdirilməsinə dair təkliflər hazırlayır və aidiyyəti dövlət orqanlarına təqdim edir;

3.1.4. Agentliyin, onun idarə, filial və nümayəndəliklərinin, habelə təsərrüfat cəmiyyətlərinin və tabeliyindəki digər qurumların iqtisadi və maliyyə vəziyyətinin təhlili və onların fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi məqsədilə tədbirlər görür;

3.1.5. təsərrüfat fəaliyyətinin həyata keçirilməsi zamanı ekoloji təhlükəsizlik normalarının tələblərinə riayət edilməsini, habelə ekologiyanın və əhalinin sağlamlığının mühafizəsi tələblərinin yerinə yetirilməsini təmin edir;

3.1.6. avtomobil yollarının torpaq sahəsində qoruyucu meşə zolaqlarının və digər yaşıllıq sahələrinin salınması, bərpası, mühafizəsi məqsədilə tədbirlər görür;

3.1.7. avtomobil yollarının torpaq sahələrində inşa edilmiş qanunsuz tikili və qurğuların inşasının qarşısının alınması ilə bağlı şəhərsalma və tikinti qanunvericiliyinə uyğun tədbirlər görür;

3.1.8. avtomobil yollarının reyestrinin yaradılmasını və aparılmasını təmin edir;

3.1.9. avtomobil yollarının qorunma (mühafizə) zolaqlarında xüsusi istifadə rejimini təmin edir;

3.1.10. Agentliyin, onun idarə, filial və nümayəndəliklərinin, habelə təsərrüfat cəmiyyətlərinin və tabeliyindəki digər qurumların səfərbərlik və mülki müdafiə hazırlığını təmin edir;

3.1.11. Agentliyə ayrılan büdcə vəsaitlərindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

3.1.12. yol təsərrüfatının maddi-texniki bazasının gücləndirilməsi üzrə tədbirlər görür, ondan səmərəli istifadə olunmasını təmin edir;

3.1.13. fəaliyyət istiqamətlərinə uyğun, yol təsərrüfatı üçün zəruri olan xammalın və materialların istehsalını və satışını həyata keçirir;

3.1.14. avtomobil yolları, habelə körpülər, tunellər və digər yol qurğuları üzərindən müvafiq mühəndisi kommunikasiyaların çəkilməsinə razılıq verir;

3.1.15. respublika və yerli əhəmiyyətli, habelə şəhər avtomobil yollarının siyahısında dəyişikliklər edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təkliflər verir;

3.1.16. təbii fəlakət və fövqəladə hallar zamanı hərəkətin müvəqqəti məhdudlaşdırılması zərurəti yaranmış avtomobil yolları barədə aidiyyəti dövlət qurumları qarşısında məsələ qaldırır;

3.1.17. təbii fəlakətin nəticələrinin aradan qaldırılması məqsədilə avtomobil yollarının və yol qurğularının bərpası üzrə işlər həyata keçirir;

3.1.18. avtomobil yollarının, habelə körpülərin, tunellərin və digər yol qurğularının tikintisi, yenidən qurulması, təmiri və bərpası üzrə layihə və smeta sənədlərinin şəhərsalma və tikinti qanunvericiliyində nəzərdə tutulmuş qaydada ekspertizasının keçirilməsi üçün tədbirlər görür;

3.1.19. avtomobil yollarının, habelə körpülərin, tunellərin və digər yol qurğularının istismara qəbul edilməsi məqsədilə tədbirlər görür;

3.1.20. qorunma (mühafizə) zolaqlarının hüdudlarının işarələnməsini həyata keçirir;

3.1.21. yolkənarı xidmət obyektlərinin avtomobil yollarına birləşmələrinin tikilməsi, yenidən qurulması və təmiri işlərinin görülməsi üçün texniki şərtlər verir və ona nəzarəti həyata keçirir;

3.1.22. Azərbaycan Respublikasında və xarici dövlətlərdə avtomobil yollarının, habelə körpülərin və digər yol qurğularının tikintisi və yenidən qurulması ilə əlaqədar layihələrin həyata keçirilməsi üçün layihəçi və podratçı təşkilatların seçilməsi məqsədilə keçirilən tenderlərdə (müsabiqələrdə) müvafiq qanunvericiliyə uyğun olaraq iştirak edir;

3.1.23. avtomobil yollarının, habelə körpülərin və digər yol qurğularının tikintisi, bərpası, təmiri və yenidən qurulması ilə əlaqədar layihələrin həyata keçirilməsi zamanı texniki və müəllif nəzarətini həyata keçirir;

3.1.24. körpülərin və digər yol qurğularının texniki sınağını keçirir, habelə texniki sınağın keçirilməsi məqsədilə ixtisaslaşdırılmış müəssisələrin cəlb olunması üçün tədbirlər görür;

3.1.25. avtomobil yollarının, körpülərin, tunellərin və digər yol qurğularının texniki pasportunu tərtib edir;

3.1.26. avtomobil yollarında istifadə olunan materialların, cihazların və avadanlıqların uyğunluğunu qiymətləndirən qurumlardan sənədlərin alınmasını təşkil edir;

3.1.27. Agentliyin, onun idarə, filial və nümayəndəliklərinin, habelə təsərrüfat cəmiyyətlərinin və tabeliyindəki digər qurumların balansında olan əmlakın müstəqil qaydada (struktur daxilində) balansdan balansa verilməsini həyata keçirir və bu barədə məlumat verir;

3.1.28. Agentliyin işçilərinin sosial müdafiəsini, əmək şəraitinin yaxşılaşdırılması və əməyin mühafizəsi tədbirlərini həyata keçirir;

3.1.29. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə baxır;

3.1.30. Agentliyin informasiya təminatını və onun təhlükəsizliyini təşkil edir;

3.1.31. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin edir;

3.1.32. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirir.

3.2. Agentlik öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahəni tənzimləyən hüquqi aktların layihələrini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək;

3.2.2. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq;

3.2.3. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

3.2.4. istifadəsində olan əmlak barəsində qanunla nəzərdə tutulmuş hüquqları həyata keçirmək;

3.2.5. yol infrastrukturunun inkişaf etdirilməsi məqsədilə bu sahədə qabaqcıl təcrübəni öyrənmək və həyata keçirmək;

3.2.6. işçilərin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə ixtisasartırma və digər istiqamətlərdə təlimlər təşkil etmək;

3.2.7. vəzifələrinin yerinə yetirilməsi məqsədilə təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.8. dövlət və yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə öz fəaliyyət istiqamətlərinə aid məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan məlumatlar (sənədlər) almaq;

3.2.9. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**4. Agentliyin idarə olunması**

4.1. Agentlik öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Agentliyin idarəetmə orqanı onun İdarə Heyətidir.

4.3. İdarə Heyəti Agentliyə rəhbərliyi və nəzarəti həyata keçirir. İdarə Heyətinin tərkibi üç nəfərdən – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyəti sədrindən və iki sədr müavinindən ibarətdir.

4.4. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərinin icrasını İdarə Heyəti sədrinin müəyyən etdiyi İdarə Heyətinin digər üzvü həyata keçirir.

4.5. İdarə Heyəti aşağıdakı vəzifələri yerinə yetirir:

4.5.1. Agentliyin inkişaf istiqamətlərini müəyyən edir;

4.5.2. təsisçinin səlahiyyətlərini həyata keçirmək üçün müvafiq olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təkliflər verir və sənədlər təqdim edir;

4.5.3. Agentliyin fəaliyyətinə dair illik hesabat hazırlayaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə təqdim edir;

4.5.4. Agentliyin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı hüquqi aktların layihələrinə baxır və bu layihələri aidiyyəti dövlət orqanlarına və qurumlarına təqdim edir;

4.5.5. bu Nizamnamənin 3.1.11-ci yarımbəndində nəzərdə tutulmuş vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

4.5.6. Agentliyin işçilərinin say həddini və əməkhaqlarını müəyyənləşdirir;

4.5.7. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının və qurumlarının strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində onların xərclər smetasını təsdiq edir;

4.5.8. Agentliyin fəaliyyətinə dair daxili qaydaları, habelə Aparatının struktur bölmələrinin, idarə, filial və nümayəndəliklərinin əsasnamələrini təsdiq edir;

4.5.9. İdarə Heyətinin və əməkdaşların fəaliyyəti zamanı maraqlar münaqişəsinin istisna olunmasının qayda və şərtlərini müəyyənləşdirir və onların icrasına nəzarət edir;

4.5.10. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin razılığı ilə Agentliyin təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul edir;

4.5.11. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin razılığı ilə Agentliyin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edir;

4.5.12. aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul edir;

4.5.13. Agentliyin kənar auditorunu təyin edir və audit hesabatını qəbul edir.

4.6. İdarə Heyətinin iclasları ayda bir dəfədən az olmayaraq çağırılır. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları İdarə Heyəti üzvlərinin ən azı ikisi iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasları müvafiq qaydada protokollaşdırılır və müzakirə edilmiş məsələlər üzrə qərarlar qəbul edilir. İdarə Heyətinin iclasında, hər üzv bir səsə malik olmaqla qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səslərin sayı bərabər bölünərsə, İdarə Heyəti sədrinin (və ya onu əvəz edən İdarə Heyətinin digər üzvünün) səsi həlledici sayılır. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir.

4.7. İdarə Heyətinin sədri:

4.7.1. Agentliyin fəaliyyətinə rəhbərliyi həyata keçirir və onu təmsil edir;

4.7.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslarına sədrlik edir;

4.7.3. sədrin müavinlərinin vəzifəyə təyin olunması və vəzifədən azad edilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə təqdimat verir;

4.7.4. sədr müavinləri arasında vəzifə bölgüsünü müəyyənləşdirir;

4.7.5. Agentliyin elmi-texniki şurasının əsasnaməsini təsdiq edir;

4.7.6. Agentliyin təsərrüfat cəmiyyətlərinin və tabeliyindəki digər qurumların nizamnamələrini təsdiq edir, onlarda müvafiq dəyişikliklər edilməsi haqqında qərarlar qəbul edir;

4.7.7. əmək fəaliyyətində fərqlənən işçilərə fəxri adların və digər təltiflərin verilməsi barədə aidiyyəti qurumlara təqdimat verir;

4.7.8. Agentliyin qərarlarının yerinə yetirilməsinə nəzarəti təşkil edir;

4.7.9. Agentliyə aid edilmiş məsələlər üzrə müvafiq il üçün dövlət büdcəsinin formalaşdırılması ilə bağlı təkliflər verir;

4.7.10. Agentliyin büdcəsinin və fəaliyyət planlarının icrasına nəzarət edir;

4.7.11. Agentliyə ayrılmış vəsaitin səmərəli xərclənməsini təmin edir;

4.7.12. etibarnamələr verir, banklarda hesablaşma hesabı və digər hesablar açır, hesabları və tədiyə tapşırıqlarını imzalayır;

4.7.13. Agentliyin fəaliyyətini səmərəli təşkil etmək üçün hüquqi şəxs yaratmaqla (birgə müəssisələr) və ya hüquqi şəxs yaratmadan birgə layihələr həyata keçirir və bu layihələri təsis sənədlərinə uyğun olaraq idarə edir;

4.7.14. öz təşəbbüsü və ya İdarə Heyətinin hər hansı digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.7.15. öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin hər hansı digər üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.7.16. Agentliyin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.7.17. Agentliyin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.7.18. Agentlikdə vətəndaşların qəbulunu və müraciətlərə baxılmasını təmin edir;

4.7.19. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.7.20. bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla Agentliyin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin işçilərinin, həmçinin təsərrüfat cəmiyyətlərinin və tabeliyindəki digər qurumların rəhbərlərinin, onların müavinlərinin, baş mühəndislərinin və baş mühasiblərin vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin görülməsi barədə qərarlar qəbul edir;

4.7.21. Agentliyin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.7.22. Agentliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.7.23. bu Nizamnamə ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində Agentliyin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.7.24. Agentliyin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər görür;

4.7.25. Agentliyin fəaliyyət istiqamətləri üzrə məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.7.26. Agentliyin idarə, filial və nümayəndəliklərinin, habelə təsərrüfat cəmiyyətlərinin və tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin auditinin keçirilməsi ilə bağlı qərarlar qəbul edir;

4.7.27. İdarə Heyətinin fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

4.8. İdarə Heyətinin üzvləri:

4.8.1. İdarə Heyətinin səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

4.8.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.8.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.8.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə İdarə Heyətinin iclaslarında baxılması barədə təkliflər verirlər;

4.8.5. İdarə Heyətinin qərarları, iclas protokolları və digər sənədlərlə tanış olurlar.

4.9. İdarə Heyətinin üzvləri İdarə Heyətinin iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyətinin üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər.

**5. Agentliyin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları**

5.1. Agentliyin nizamnamə fondu 1 394 796 (bir milyon üç yüz doxsan dörd min yeddi yüz doxsan altı) manatdır.

5.2. Agentliyin əmlakı təsisçi tərəfindən ödənilən nizamnamə fondundan, təsisçi tərəfindən ona verilmiş digər əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitlərdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən

Ardı 3-cü səhifədə

investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitlərdən formalaşır.

5.3. Agentlik əmlakından yalnız bu Nizamnamədə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Agentlik balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini bu Nizamnaməyə və müvafiq qanunvericiliyə uyğun həyata keçirir.

5.4. Agentlik qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri müəyyən edilmiş qaydada ödədikdən sonra Agentliyin, onun təsərrüfat cəmiyyətlərinin və tabeliyindəki digər qurumların, idarə, filial və nümayəndəliklərinin fəaliyyətindən əldə edilmiş mənfəəti üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. Agentlik "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlər göstərdiyi və hüquqi hərəkətləri həyata keçirdiyi hallarda həmin Qanunla müəyyən edilmiş qaydada və məbləğdə dövlət rüsumu tutur.

5.6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) siyahısında nəzərdə tutulmuş Agentliyin məhsullarının (mallarının, işlərinin, xidmətlərinin) qiymətləri tənzimlənən qiymətlərə aiddir.

**6. Agentliyin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi**

6.1. Agentliyin fəaliyyətinə nəzarət Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, həmçinin verilmiş təsisçi səlahiyyətləri çərçivəsində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən həyata keçirilir.

6.2. Agentliyin fəaliyyətinə dair illik hesabat Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə təqdim edilir.

**7. Agentlikdə uçot və hesabat**

7.1. Agentlik "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Agentlik "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, statistik uçot aparır və statistik hesabatları tərtib edir.

7.3. Agentliyin birinci maliyyə ili onun dövlət qeydiyyatına alındığı tarixdən başlayır və həmin il dekabrın 31-də başa çatır. Növbəti maliyyə ili isə yanvarın 1-dən başlayır və dekabrın 31-də başa çatır.

7.4. Agentlik idarə, filial və nümayəndəliklərinin, habelə təsərrüfat cəmiyyətlərinin və tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

**8. Audit**

8.1. Agentlik daxili audit xidmətini təsis edir. Daxili audit xidməti "Daxili audit haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş vəzifələri yerinə yetirir.

8.2. Agentliyin maliyyə-təsərrüfat fəaliyyətinin müstəqil (kənar) auditi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

**9. Agentliyin ləğvi və yenidən təşkili**

Agentliyin ləğvini və yenidən təşkilini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri həyata keçirir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 17 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin strukturu

1. "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin Aparatı.
2. "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin təsərrüfat cəmiyyətləri.

## Sahibkarlarla görüş



Noyabrın 17-də Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin birgə təşkilatçılığı ilə Naxçıvan Biznes Mərkəzində sahibkarlarla görüş keçirilib. "Sahibkarlıq sahəsində yoxlamaların aparılması ilə bağlı sui-istifadə və korrupsiya hallarının qarşısının alınması məqsədilə sahibkarlıq subyektləri üçün bu sahədə məlumatlılığın artırılması" və "Mediasiya işinin təbliği və KOB subyektləri arasındakı mübahisələrdə mediasiya fəaliyyətinin tətbiqi"nə həsr olunan görüşdə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin, İqtisadiyyat Nazirliyinin məsul əməkdaşları, Naxçıvan Mediasiya Təşkilatının mediatorları və sahibkarlar iştirak ediblər.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat şöbəsinin Notariat bölməsinin rəisi Zülfü İsmayılov açaraq ölkə başçısı cənab İlham Əliyevin sahibkarlıq sahəsinə göstərdiyi diqqət və qayğıdan bəhs edib, keçirilən görüşün sahibkarlıq subyektlərinin bu sahədə hüquqi məlumatlılığının artırılmasına müsbət təsir edəcəyini bildirib.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə sahəsində xidmətlər baş idarəsinin Dövlət reyestrləri idarəsinin rəisi Seymur İsmayılov "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi, yoxlamaların vahid məlumat reyestrinin yaradılması zərurəti və məqsədi" və baş məsləhətçi Anar Quliyev "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi dairəsi və tələbləri və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının müəllimi Mətanət Əsgərova "Korrupsiya ilə mübarizə" mövzularında ətraflı çıxış ediblər.

Daha sonra Naxçıvan Muxtar Respublikası Mediasiya Təşkilatının direktoru Yusif Həsənov "Mediasiya işinin təbliği və KOB subyektləri arasındakı mübahisələrdə mediasiya fəaliyyətinin tətbiqi" və Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Sahibkarlığın inkişafı şöbəsinin müdiri Xudakərim Məmmədov "Sahibkarlığın inkişafı istiqamətləri, sui-istifadə və korrupsiya hallarının qarşısının alınmasının iqtisadi inkişafda əhəmiyyəti və rolu" mövzularında çıxış ediblər.

Keçirilən görüşdə sahibkarların rəy və təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb, mövzularla bağlı ətraflı fikir mübadiləsi aparılıb və bir sıra məsələlər müzakirə olunub.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının yaranmasının ildönümü qeyd edilib



*Noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının yaranmasının ildönümü ilə əlaqədar tədbir keçirilib.*

Əvvəlcə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının rəhbərliyi və kollektivi Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstələri düzüb, dahi şəxsiyyətin əziz xatirəsini ehtiramla yad ediblər. Sonra Heydər Əliyev Muzeyində Ümummilli Liderin həyat və fəaliyyətinə aid fotoşəkil və eksponatlarla tanış olublar. Kollektivə Ulu Öndərin hər kəsə örnək olan çoxşaxəli siyasi fəaliyyəti, o cümlədən həyatının Naxçıvan mərhələsi haqqında ətraflı məlumat verilib.

Tədbiri giriş sözü ilə açan AHİK sədrinin müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev bildirib ki, Şura 1967-ci il noyabrın 17-də keçirilən təsis konfransında təşkil edilib, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının tərkib hissəsi olmaqla bir neçə təşkilatın birləşdiyi qurumdur. Bu qurum Həmkarlar İttifaqları üzvlərinin və digər işçilərin sosial-iqtisadi, hüquqi və mənəvi mənafelərinin müdafiəsini həyata keçirən və muxtar respublikanın sahə həmkarlar ittifaqlarının, sahələrarası birliklərin könüllü ittifaqıdır. Qurum üzrə muxtar respublikanın idarə və müəssisələrində 767 ilk təşkilat fəaliyyət göstərir ki, onlar da öz ətraflarında 46224 ittifaq üzvünü birləşdirir.

Qəzənfər Abdullayev qeyd edib ki, Həmkarlar İttifaqları yarandığı gündən bu günədək vətəndaşların hüquqlarının müdafiəçisi kimi sosial problemlərinin həlli və əmək hüquqlarının təmin olunması sahəsində ardıcıl və məqsədyönlü fəaliyyət göstərir. Həmçinin əmək münasibətlərinin tənzimlənməsi, işçilərin əmək hüquqlarının qorunması, onların sosial müdafiəsinin, asudə vaxtının təşkili, müəssisə rəhbərləri ilə işçilər arasında əmək münasibətlərinin normal məcrada qurulması, yarana biləcək ziddiyyətlərin aradan qaldırılması, işçilərin qanuni mənafelərinin



qorunması istiqamətində fəal iş aparır.

Çıxışlar dinlənildikdən sonra Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında həmkarlar ittifaqı fəallarının mükafatlandırılma mərasimi olub. Naxçıvan Qarnizonu Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Natiq Əhmədov, Kəngərli Rayon Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Əfsanə Hüseynova və Şahbuz Rayon Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Mirhəsən Kərimov "AHİK – 30 il" yubiley döş nişanı, şuranın 12 nəfər həmkarlar ittifaqı fəalı AHİK-in Fəxri fərmanı ilə, 43 nəfər fəal isə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının Fəxri fərmanı ilə təltif olunub. Əməkdə, təhsildə və ictimai fəaliyyətdə nailiyyətlər əldə etmiş 2 nəfər gəncə "İlin peşəkar gənci" fəxri adı verilib.

Sonda "Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası dünəndən bu günə" adlı videoçarxa baxış olub.

**Ceyhun MƏMMƏDOV**

## "Müasir təbabətin aktual problemləri" mövzusunda tibbi konfrans olub

*Naxçıvan Dövlət Universiteti, Milli Onkologiya Mərkəzi, Azərbaycan Endoskopik və Laparoskopik Cərrahlar Cəmiyyəti, Azərbaycan Qastroenteroloqlar və Hepatoloqlar İctimai Birliyi və Bolqarıstanın əczaçılıq şirkəti "Sopharma"nın birgə təşkilatçılığı ilə ali təhsil ocağında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Təbabətin aktual problemləri" mövzusunda tibbi konfrans keçirilib.*



Konfransdan əvvəl iştirakçılar Ulu Öndərin Naxçıvan şəhərində əzəmətlə ucalan abidəsi önünə gül dəstəsi qoyaraq dahi şəxsiyyətin xatirəsini ehtiramla yad ediblər. Sonra Heydər Əliyev Muzeyi ziyarət olunub, dahi şəxsiyyətin həyat və fəaliyyətini özündə əks etdirən eksponatlar haqqında tədbir iştirakçılarına ətraflı məlumat verilib.

Konfransda Naxçıvan Dövlət Universitetinin elm və innovasiyalar üzrə prorektoru Elsevər Əsədov, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzinin baş həkimi Azad Kərimov çıxışlarında qeyd ediblər ki, ölkənin səhiyyə sisteminin müasir və beynəlxalq çağırışlar fonunda inkişaf etdirilməsi Heydər Əliyev siyasətinin əsas istiqamətlərindən olub.

Daha sonra Milli Onkologiya Mərkəzinin həkim-onkoloqu, doktor Niyazi Əsgərovun "İnvaziya edən xərçəng xəstəliyi", Azərbaycan Qastroenteroloq və Hepatoloqlar İctimai Birliyinin sədri Gülnarə Ağayevanın "Karsil-forte preparatının dərman və alkoqol hepatitlərinin müalicəsində istifadəsi", Azərbaycan Endoskopik və Laparoskopik Cərrahlar Cəmiyyətinin sədri, professor Müşviq Həsənovun "Öddaşı xəstəliyi yanaşı xəstəliklərlə birlikdə yarandıqda nə etməli?", hepatoloq Azər Nağıyevin "Qıcıqlanmış bağırsaq sindromunun müalicəsində Mebeverin preparatından istifadə", ATU Yoluxucu xəstəliklər kafedrasının dosenti Vüqar Cavadzadənin "B Virus hepatitinin autoimmun hepatitlə differensial diaqnoz aspektləri" mövzularında çıxışları dinlənilib.

Sonda "Tabex – siqareti birlikdə tərgidək" sosial reklam çarxı nümayiş olunub.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Araz-Türk Respublikasının yaradılmasının 105-ci ildönümü ilə əlaqədar tədbir keçirilib



Naxçıvan şəhərindəki Cəmşid Naxçıvanski Muzeyində Araz-Türk Respublikasının yaradılmasının 105-ci ildönümü münasibətilə tədbir keçirilib. Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərinin, həmçinin Naxçıvan Müəllimlər İnstitutunun tələbələrinin iştirak etdikləri tədbiri giriş sözü ilə muzeyin direktoru Abasət Nuriyev açıb.

"1918-1920-ci illərdə Naxçıvanın müdafiəsinin təşkili" mövzusunda çıxış edən Naxçıvan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri, tarix elmləri doktoru, dosent Xəzər Hüseynov Araz-Türk Respublikasının yaradılmasında və Naxçıvanın müdafiəsində Naxçıvanskilərin rolundan danışıb.

Bildirilib ki, Araz-Türk Respublikasının ilk paytaxtı Türkiyə Cümhuriyyətinin İğdır şəhəri olub. Sonra isə müəyyən səbəblərə görə paytaxt Naxçıvana köçürülüb. Hazırda muzey kimi fəaliyyət göstərən bina o vaxt Araz-Türk Respublikası hökumətinin binası olub. Vurğulanıb ki, Araz-Türk Respublikasının yaradılmasının başlıca səbəblərindən biri Naxçıvanın təhlükəsizliyini təmin etmək idi. Araz-Türk Respublikası erməni daşnaklarının bölgəyə girməsinin qarşısını alıb. Diqqətə çatdırılıb ki, eyni vəziyyəti Naxçıvan ötən əsrin 90-cı illərində də yaşadı. Ulu Öndər Heydər Əliyevin Naxçıvana gəlişi ilə qədim diyarımız düşdüyü ağır vəziyyətdən qurtardı.

Tədbirdə muzeyin fond mühafizi-elmi işçisi, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Gülnaz Hüseynovanın "Araz-Türk Respublikasının fəaliyyətində Naxçıvanskilərin rolu" mövzusunda çıxışı dinlənilib.

Tədbirin sonunda tələbələri maraqlandıran suallar ətraflı cavablandırılıb, sonra muzeyə baxış keçirilib.

**Rafiq TƏHMƏZOV**
**Ayşən ADIGÖZƏLOVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə II kurs tələbələri***

*Ümummilli Liderimiz Heydər Əliyev 1973-cü ildə Ağdamda səfərdə olarkən demişdi:* ***“Mən arzu edirəm ki, Ağdam gündən-günə çiçəklənsin. Həm şəhər, həm də kəndlər dastanlarda, şeirlərdə olduğu kimi, Azərbaycanın gözəl bağ-bağatlı guşəsi olsun… Qarabağsız, Ağdamsız Azərbaycan yaşaya bilməz!”*** *Bu gün hər bir sahədə Ata vəsiyyətini uğurla yerinə yetirən Prezidentimiz cənab İlham Əliyev işğaldan azad edilmiş bütün şəhər və rayonlarımıza, o cümlədən Qarabağın canı Ağdama da yeni həyat verib, Ağdam gün keçdikcə daha da dirçəldilir…*

# Dirçəldilən, yenidən həyat bəxş edilən Ağdam

### Qarabağın qapısı

Qarabağın mərkəzində – Qarabağ dağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərbində yerləşən bu rayonumuz Qarabağın giriş qapısı sayılır. Qədim tarixi, füsunkar təbiəti, məhsuldar torpaqları ilə seçilən Ağdam şəhərinin adı qədim türk dilində “kiçik qala” deməkdir. Bu, keçmişdə bu ərazidə yaşayan türkdilli qəbilələrin özlərini müdafiə etmək üçün tikdikləri kiçik qalalarla bağlı olub. Qarabağlı Pənahəli xanın Ağdamda ağ daşdan tikdirdiyi imarət kənd sakinləri üçün simvola çevrilmiş və bu mənada, “Ağdam” həm də Günəş şüaları ilə nurlanmış işıqlı, ağ ev mənasını vermişdir. Digər versiyalara görə isə Ağdam – ağ Adəm, ilk insan mənasını ifadə etməklə dünyanın ən qədim yaşayış məskənlərindən biri sayılır.





Ağcabədi, Tərtər, Bərdə, Kəlbəcər, Əsgəran, Xocavənd, həmçinin Füzuli rayonları ilə həmsərhəd olan Ağdam keçmişdə tarix, mədəniyyət, elm və təhsil mərkəzi kimi diqqəti cəlb edib. Bu torpaq Xudu Məmmədov, Sara Qədimova, Qədir Rüstəmov, Arif Babayev və başqa böyük sənətkarları, elm-mədəniyyət xadimlərini yetişdirib. Üzərliktəpə abidəsi, Sarı Musa türbəsi, Pənahəli xanın və onun nəslinin Ağdam şəhərindəki imarəti, Şahbulaq qalası, Ağdam Cümə məscidi, Çörək Muzeyi və digər tarixi-memarlıq abidələri, yaşayış məskənləri, sərdabələri, kurqanları, ziyarətgahları Ağdamın qədim Azərbaycan torpağı olduğunu sübut edir. Kənd təsərrüfatı üçün yararlı torpaqlara sahib olan rayonun ərazisindən Qarqar və Xaçın çayları axır.

### Strateji əhəmiyyətli şəhər

Əvvəllər müxtəlif sənaye sahələrinin inkişaf etdirildiyi Ağdam həm də düşmənin həsədlə baxdığı strateji əhəmiyyətli şəhər olub. Qarabağa gedən yolların Ağdamdan keçməsi mənfur düşmənlərimizin işğalçılıq niyyətlərini daha da alovlandırmış, onların torpaqlarımıza təcavüzünün ilk qığılcımları da məhz Ağdamdan başlanmışdır. 1992-ci ilin sentyabrında Abdal-Gülablı kəndini tutan düşmən 1993-cü il iyul ayının 23-də ağdamlıların uzunmüddətli mübarizəsinə baxmayaraq, buranı işğal etmişdi. Qədim yurdumuz talan edilmiş, neçə-neçə kənd, yaşayış binası, sənaye və tikinti müəssisəsi, məktəb binası, səhiyyə mərkəzi, mədəniyyət ocağı, teatr, məscid və muzeylər, tarixi abidələr vandalizm siyasətinin qurbanına çevrilmişdi. Ağdamın payına neçə-neçə şəhid, sağlamlıq imkanları məhdud şəxs, qaçqın, məcburi köçkün düşmüşdü. Müstəqil Azərbaycanın qurucusu, Ümummilli Liderimiz Heydər Əliyev siyasi hakimiyyətə qayıtdıqdan sonra ağdamlılarla keçirdiyi hər bir görüşündə onların bir gün doğma yurdlarına qayıdacaqlarına inam hissi yaradırdı. Görkəmli dövlət xadimi ağdamlılarla görüşü zamanı demişdir: ***“Ağdam rayonu o vaxt bizim ən varlı rayonlarımızdan biri idi. Çünki Ağdamın çox gözəl torpağı var, çox gözəl təbiəti var, çox fədakar, zəhmətkeş insanları var. Ağdam Azərbaycanın inkişafında çox böyük rol oynamışdır. Ağdamdan olan insanlar Azərbaycanın elmini, mədəniyyətini inkişaf etdirmişlər. Azərbaycanın dövlət orqanlarının yaradılmasında, inkişaf etdirilməsində fəal iştirak etmişlər. Bu da həm ağdamlıların sərvətidir, həm də bütün Azərbaycan xalqının sərvətidir”.***

### Ağdam artıq azaddır

Xalq şairi Cabir Novruz illər əvvəl hələ torpaqlarımız işğal altındaykən bu misraları yazmışdı:

*Vaxt keçəcək, dövr edəcək,*
*Qan-qadalı hərb bitəcək,*
*Yağıları qovacağıq bu torpaqdan,*
*Mütləq geri alınacaq*
*Şuşa, Ağdam,*
*Mütləq geri alacağıq*
*Kəlbəcəri,*
*Laçını da,*
*Qarabağa bütün yollar açılacaq.*

Belə də oldu. 27 il doğma yurdlarının həsrətini çəkən ağdamlıların arzuları gerçəkləşdi. Ölkə Prezidenti cənab İlham Əliyev nəinki ağdamlıları, bütün qarabağlıları sevindirdi. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi qubar bağlayan dərdli, kədərli qəlblərə təskinlik oldu. Uzun illər düşmən tapdağı altında inləyən torpaqlarımız cəmi 44 gün ərzində Ordumuzun şücaəti, dövlət başçımızın siyasi iradəsi, qətiyyəti hesabına azad edildi. Ölkə başçısının televiziya vasitəsilə verdiyi torpaqlarımızın azad edilməsi xəbərləri xalqımıza, doğma torpaqlarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərə böyük sevinc və qürur yaşatdı. Məğlubiyyətə uğrayan düşmən 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanatı imzalamağa məcbur oldu və nəticədə, Ağdam rayonu 2020-ci il noyabrın 20-də işğaldan azad edildi. Ölkə başçısı bununla bağlı deyib: ***“Biz Ağdamı bir güllə atmadan, bir şəhid vermədən azad etdik və bu gün buradayıq və bundan sonra əbədi burada olacağıq... Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır”.*** 2020-ci il noyabrın 23-də dövlətimizin başçısı iyirmi yeddi ildən sonra işğaldan azad olunan Ağdamda üçrəngli bayrağımızı qaldırdı.

### Qafqaz Xirosiması və ruhlar şəhəri cənnətə çevrilir

Ağdamın işğal dövründəki fotoşəkillərinə baxsanız, onun nə üçün “Qafqaz Xirosiması” və “Ruhlar şəhəri” adlandırıldığını görəcəksiniz. Ağdam vəhşi, amansız erməni vandalları tərəfindən xarabazarlıq, viran edilmişdi. Ağdam turistlər arasında maraqdoğuran 20 ruhlar şəhərindən biri kimi dünyaya tanıdılmış, yer üzündən silinmiş şəhərlər siyahısında yer almışdı. Lakin bu artıq tarixdə qalıb. Dövlətimizin gücünü, potensialını, Prezident cənab İlham Əliyevin qətiyyətini və siyasi iradəsini təcəssüm etdirən tikinti-quruculuq tədbirləri Ağdam rayonunu da əhatə edib. 2021-ci il mayın 28-də Prezident cənab İlham Əliyev Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması mərasimində iştirak etmiş, bununla da Ağdamın bərpa və quruculuq dövrü başlanmışdır. Həmin gün Ağdam şəhərində 1 nömrəli məktəbin, Ağdam Sənaye Parkının, Bərdə-Ağdam avtomobil yolunun, böyük meşə sahəsinin təməli qoyulmuş, İmarət kompleksinin bərpası ilə əlaqədar işlərə start verilmişdir. Şəhərin müasir standartlara, müasir tələblərə uyğun inkişaf planına əsasən burada İşğal muzeyi və Zəfər muzeyi, kanallar, körpülər, süni göllər yaradılır. Ötən il fevral və oktyabr aylarında Ağdam rayonuna yenidən səfər edən dövlətimizin başçısı “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kV-luq “Ağdam-1” və “Ağdam-2” elektrik yarımstansiyalarının, “Qarabağ” Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışlarında iştirak etmiş, bir sıra qurğu və müəssisələrin, Ağdam şəhərində keçmiş məcburi köçkünlər üçün inşa olunacaq mənzillərdən ibarət yaşayış məhəlləsinin, şəhərin dəmir yolu və avtovağzal kompleksinin, rayonun Sarıcalı kəndinin təməlqoyma mərasimlərində iştirak etmişdi. Ölkə başçısı və birinci xanım Mehriban Əliyeva bu il mayın 2-də Ağdam rayonuna səfər edərək “Azərişıq” ASC-nin Ağdam şəhərində Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin, Ağdam Muğam Mərkəzinin, Ağdam şəhərində salınacaq 2-ci və 3-cü yaşayış məhəllələrinin, Ağdam şəhərində inzibati binanın təməlini qoymuşdur. Ağdamda həyata keçirilən infrastruktur layihələri, tədbirlər gələcəkdə regionun iqtisadi inkişafına böyük zəmin yaradacaq, əhalinin sosial vəziyyəti daha da yaxşılaşacaq.

### Dünya üçün örnək şəhər

Bu gün Ağdam həm də minalarla ən çox çirkləndirilən ərazilərimizdən biridir. Ağdam sürətlə minalardan təmizlənir. Həyata keçirilən tədbirlər tam əminlik yaradır ki, keçmişdə “Qafqaz Xirosiması” adlandırılan Ağdam yaxın zamanda “Qafqazın cənnəti”nə çevriləcək və dünya üçün örnək olacaq. Prezident cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən hər il noyabrın 20-si Ağdam şəhəri günü kimi təntənəli şəkildə qeyd olunacaq.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvanda uşaq bağçalarına qəbul artıq elektron sistem üzərindən aparılacaq



Noyabrın 16-dan başlayaraq Naxçıvan Muxtar Respublikasında məktəbəqədər təhsil müəssisələri ümumölkə informasiya sisteminə inteqrasiya olunur. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki bazasının, pedaqoji və texniki heyətinin, uşaqların ümumi məlumatlarının sistemə inteqrasiyası həyata keçirilir və bu prosesi həyata keçirəcək əməkdaşlar üçün təlimlər təşkil olunur.

Qeyd edək ki, bu günə kimi Naxçıvan Muxtar Respublikasındakı məktəbəqədər təhsil müəssisələri ümumölkə informasiya sistemlərinə inteqrasiya olunmamışdı. Bu da uşaqların bağçalara qəbulunda bir sıra problemlər yaradırdı. Valideynlər uşaqlarını bağçaya yerləşdirərkən çətinliklərlə üzləşirdi. Məktəbəqədər təhsil müəssisələri ümumölkə informasiya sistemə inteqrasiya olunduqdan sonra 2024-2025-ci tədris ilindən artıq valideynlər uşaqlarının bağçalara qəbulunu “Məktəbəqədər təhsil müəssisələrinə elektron sənəd qəbulu sistemi” (www.bq.edu.az) vasitəsilə həyata keçirə biləcəklər. Belə ki, valideynlər ümumölkə üzrə bağçalara uşaq qəbulu ilə bağlı elandan sonra elektron kabinet yaratmaq imkanı əldə edəcəklər. Həmçinin bütün valideynlər uşaqlarının məktəbəqədər təhsil müəssisələrinə qəbulu ilə bağlı növbəyə yazıla biləcəklər. Məktəbəqədər təhsil müəssisələrinə qəbul sistemi 1 uşaq üçün maksimum 3 məktəbəqədər təhsil müəssisəsini seçmə imkanı verir. Mövcud növbələrin boş yer olduğu halda sorğuya çevrilməsi prosesi minimum 5 gündən sonra həyata keçiriləcək. Növbə sorğuya çevrildikdən sonra valideyn 15 gün ərzində sənədləri müvafiq müəssisəyə təqdim edəcək və uşağın qəbulu aparılacaq.



Sistemin əsas məqsədlərindən biri də muxtar respublika üzrə məktəbəqədər təhsil müəssisələri və bu müəssisələr daxilində olan uşaq və heyət haqqında bütün məlumatları vahid bir bazada saxlamaqdır.

**Xəbərlər şöbəsi**

## Şəhər birinciliyi keçirilib

“Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!” devizi altında İlham Əliyev adına Olimpiya İdman Kompleksində yeniyetmələr arasında sərbəst güləş üzrə Naxçıvan şəhər birinciliyi keçirilib. Birinciliyin keçirilməsində əsas məqsəd yeniyetmələri zərərli vərdişlərdən kənarlaşdırmaq, onların sağlam ruhda böyüməsinə şərait yaratmaqdan ibarət olub. Birincilikdə 11 çəki dərəcəsi üzrə 55 idmançı iştirak edib. Birinciliyin yekununa gəlincə Murad Hacızadə 29 kiloqram, Qəhrəman Qəhrəmanov 32 kiloqram, Şahin Əsgərli 35 kiloqram, Elxan Muradov 38 kiloqram, Ramal Məhərrəmli 41 kiloqram, Ramal Rüstəmov 44 kiloqram, Əli Mirzəli 48 kiloqram, Səfər Muradov 52 kiloqram, Eltun Abbaslı 57 kiloqram, Mətin Cabbarlı 62 kiloqram və Fərid Novruzlu 68 kiloqram çəki dərəcələrində bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olub.



Sonda hər çəki dərəcəsində I, II və III yerləri tutan idmançılar idarənin diplomları ilə mükafatlandırılıb.

Naxçıvan Güləş Federasiyası, Gənclər və İdman İdarəsi və İlham Əliyev adına Olimpiya İdman Kompleksinin birgə təşkil etdiyi birincilik 17 noyabr 2023-cü il tarixdə reallaşıb.

✍ **Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Ordubad rayonunun Darkəndində yaşamış Rüstəmova Göyçək Cabbar qızının adına olan JN-163A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Babək məhəlləsi, bina 15, mənzil 31-də Qaybalıyev Səfərəli Rəhim oğlunun adına olan 5332 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Şəhriyar küçəsi, döngə 1, mənzil 10-da Əliyev Təhməz Həbib oğlunun adına olan 585 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 665